# Azərbaycan sənayesinin struktur problemləri: səbəbləri və həlli yollarına dair

# Araşdırma Sənədi

**Ekspertlər: Rövşən Ağayev və Azər Mehtiyev**

**Bakı - 2021**

# Mündəricat

Xülasə .......................................................................................................... 3

Giriş .............................................................................................................. 4

Azərbaycan sənayesinin strukturu: mövcud durum və problemlər ...................................... 5

Ölkə sənayesinin strukturunun formalaşmasına təsir göstərən amillər .............................. 14

Sənayenin struktur problemlərinin həlli istiqamətində indiyədək həyata keçirilən tədbirlər və əldə olunan nəticələr .......................................................................................... 20

Sənayenin strukturunun təkmilləşdirilməsi istiqamətləri, yolları və mexanizmləri ........... 23

Nəticə və tövsiyələr ...................................................................................... 27

Ədəbiyyat siyahısı ........................................................................................ 29

# Xülasə

Hər bir ölkənin iqtisadi durumu əsasən onun sənayesinin inkişaf səviyyəsi ilə müəyyən edilir, çünki ölkə iqtisadiyyatının şaxələndirilməsi və əhalinin həyat səviyyəsinin davamlı olaraq yüksəldilməsi kimi strateji vəzifələrin uğurlu həlli, ilk növbədə, məhz sənaye kompleksinin rəqabət qabiliyyətliliyindən asılı olur. Bu tədqiqatda Azərbaycan sənayesinin sektor, sahə, regional, texnoloji və ixrac strukturunun təhlili əsasında ölkə sənayesinin struktur problemləri ortaya çıxarılıb.

Araşdırma nəticəsində məlum olub ki, son 10 ildə ölkədə iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sənayesinin inkişaf etdirilməsi istiqamətində bir sıra dövlət proqramlarının və strategiyaların qəbul edilməsinə və icrasına, habelə ölkədə biznes mühitinin yaxşılaşdırılması istiqamətində əhəmiyyətli addımların atılmasına baxmayaraq, ölkənin sənaye strukturundakı problemlər hələ də ciddi səviyyədə qalır.

Tədqiqat zamanı məlum olub ki, hazırda ölkənin sənaye istehsalının 70 faizindən, həmçinin sənayedə yaradılan yeni dəyərinin 85 faizindən çoxu, ölkənin ümumi ixracının 90 faizi isə neft-qaz hasilatı və neft məhsullarının istehsalının payına düşür. Ümumi mənzərə isə belədir: sənaye istehsalının 90 faizinə qədəri Bakı şəhəri və Abşeron iqtisadi rayonunun ərazində baş tutur; emal sənayesi sahələrində yeni yaradılan dəyər il ərzində sənayedə yaradılan yeni dəyərin 10 faizindən də azdır; emal sənayesində fəaliyyət göstərən sahələrdə əsasən aşağı və orta aşağı texnoloji məhsul qruplarına aid məhsullar istehsal olunur və s.

Araşdırmanın nəticəsi olaraq deyə bilərik ki, ölkənin emal sənayesi hələ də xarici investorlar üçün cəlbedici deyil, habelə yerli investorlar da emal sənayesi sahələrinə çox da böyük maraq göstərmirlər.

Tədqiqatın sonunda ölkə sənayesinin strukturunun təkmilləşdirilməsinə yönəlik hökumətin sənaye və investisiya siyasətinin yaxşılaşdırılmasına yönəlik təklif və tövsiyələr işlənilib.

# Giriş

Sənayenin quruluşunun araşdırılması ölkə sənayesinin milli iqtisadiyyatın tələblərinə uyğunluq dərəcəsini, dünya iqtisadiyyatına səmərəli inteqrasiya imkanlarını, onun xarici ölkələrin sənayelərinə münasibətdə rəqabətqabiliyyətlilik səviyyəsini, müasir beynəlxalq çağırışlara cavab verə bilmə səviyyəsini müəyyən etməyə, elmi-texniki tərəqqini və sosial inkişafı təmin edən sahələrin nisbətlərini, sənayedə baş verməkdə olan ixtisaslaşma meyllərini, fond, əmək, sərmayə, elm və enerji tutumlu sahələrin sənayenin sahə quruluşundakı paylar nisbətini, sahələrin inkişaf dinamikalarını, sənayenin sahə quruluşundakı dəyişikliyin onun iqtisadi səmərəliliyinə təsirində ayrı-ayrı sahələrin rolunu, hər hansı il üçün sahələrdə yaranmış bir iş yerinin müqayisəli dəyərlərini aşkara çıxarmağa və sənayenin inkişafını proqnozlaşdırmağa, habelə hökumətin iqtisadi siyasətinin işlənilməsi üçün zəruri məlumatları əldə etməyə imkan verir.

Sənayenin sahə quruluşunun optimallığı onun (sənayenin) qarşısında qoyulan tələblərə nə dərəcədə cavab verməyi ilə müəyyən edilir. Müasir qlobal rəqabər şəraitində ölkə sənayesinin sahə quruluşu beynəlxalq rəqabətə dözümlü sahələrdən ibarət olmaqla ölkə iqtisadiyyatının inkişafını təmin edə bilən səviyyədə olmalıdır. Ölkə sənayesi bir-iki sahədən asılı olmamalı, mümkün qədər geniş şaxələnmiş olmalıdır. Sənayenin çox sayda sahələrdən təşkil olunması onun dayanıqlı inkişafını təmin edir, həmçinin qlobal iqtisadi böhranlar dövründə tənəzzülün dərinləşməsinin qarşısını almağa yardımçı ola bilir. Öncə sənayenin sahə quruluşu elə olmalıdır ki, mövcud resurs imkanları çərçivəsində özünün və ölkənin ehtiyaclarını öz məhsulları ilə mümkün qədər təmin edə bilsin və daha çox məhsulların ixracını hədəfləsin. Ölkə sənayesinin sahələri nə qədər çox rəqabət qabiliyyətli məhsul ixrac edərsə, ölkənin tədiyə balansına müsbət təsir göstərməklə milli sərvətinin artırılmasına xidmət etmiş olar. Nəhayət, sənayenin sahə quruluşu müasir dünyanın inkişaf meyllərinə uyğun olmalı və qlobal çağırışlara cavab verə bilməlidir.

Bu tədqiqat işində Azərbaycan sənayesinin struktur problemləri araşdırılıb. Tədqiqatda əvvəlcə ölkə iqtisadiyyatında sənayenin rolu qiymətləndirilir. Daha sonra müqayisəli statistika və dinamik təhlillər əsasında ölkə sənayesinin sahə, sektor, regional, ixrac və texnoloji strukturları araşdırılıb və mövcud problemlər aşkara çıxarılıb. Daha sonra sənayenin strukturunun formalaşmasına təsir göstərən amilləri araşdırmaqla, Azərbaycan sənayesinin mövcud quruluşunun formalaşmasına həlledici təsir göstərən amillər müəyyən edilib. Eyni zamanda, ölkədə iqtisadiyyatın və ixracın şaxələndirilməsi, habelə qeyri-neft sektorunun inkişafı istiqamətində hökumətin həyata keçirdiyi tədbirlər təqdim edilib, hökumətin investisiya və sənaye siyasətindəki boşluqlarının aşkara çıxarılmasına cəhd göstərilib. Sonda sənayenin strukturunun təkmilləşdirilməsinə, ölkədə qeyri-neft sənayesi sahələrinin inkişaf etdirilməsi üçün yerli və xarici investisiyaların stimullaşdırılması sahəsində təklif və tövsiyələr verilib.

Tədqiqat masaüstü araşdırma üslubunda hazırlanıb.

# 1. Azərbaycan sənayesinin strukturu: mövcud durum və problemlər

Sənaye dünyanın əksər ölkələrinin iqtisadiyyatında məşğulluğu və əhalinin gəlirlərini təmin edən başlıca sahələrdən biridir. İstənilən ölkənin iqtisadi durumu əsasən onun sənayesinin inkişaf səviyyəsi ilə müəyyən edilir, çünki ölkə iqtisadiyyatının şaxələndirilməsi və əhalinin həyat səviyyəsinin davamlı olaraq yüksəldilməsi kimi strateji vəzifələrin uğurlu həlli, ilk növbədə, məhz sənaye kompleksinin rəqabət qabiliyyətliliyindən asılıdır[1].

Dövlət Statistika Komitəsinin (DSK) məlumatına əsasən, 2020-ci ildə ölkədə yeni yaradılan dəyərin 33.7 faizi sənayedə formalaşıb ki, bu da ölkə iqtisadiyyatının digər sahələri ilə müqayisədə ən böyük pay deməkdir. 2020-ci ildə ÜDM istehsalının 11.5 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri, 7.7 faizi tikinti, 7.1 faizi nəqliyyat və anbar təsərrüfatı, 6,.9 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2.,0 faizi informasiya və rabitə, 1.2 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrinin, 20.2 faizi digər sahələrin payına düşüb, məhsula və idxala xalis vergilər isə ÜDM-in 9.7 faizini təşkil edib (*diqaram 1*).




**Diaqram 1. 2020-ci ildə Azərbaycanda ÜDM istehsalının quruluşu, ümumi yekunda xüsusi çəkisi, faizlə** (*Mənbə: DSK*)

Diqaram 1-dən göründüyü kimi, sənaye ölkə iqtisadiyyatının aparıcı sahələrindən biridir, amma DSK-nın məlumat bazası əsasında apardığımız araşdırmalar göstərir ki, illik ÜDM istehsalında sənayenin payında son 15 ildə (2005-2020-ci illər dövründə) kəskin

[1] Sənaye inkişafı haqqında Hesabat-2013. UNİDO https://www.unido.org/sites/default/files/2014-04/IDR_2013_OVERVIEW_RUSSIAN_EBOOK_0.pdf

dəyişikliklər – volotillik – müşahidə olunur. Belə ki, bu göstəricinin səviyyəsi 2005-ci ildə 49.4 faizdən 2011-ci ildə 53.8 faizədək yüksəlmiş, 2015-ci ildə 32.9 faizə düşmüş, sonra 2018-ci ilədək artım baş vermiş və 2018-ci ildə 44.5 faiz səviyyəsinə yüksəlmiş, son 2 ildə isə yenidən azalmağa meyil götürmüşdür (*diaqram 2*).




**Diqaram 2. İllik ÜDM istehsalında sənayenin payının dinamikası, ümumi yekunda xüsusi çəkisi, faizlə** (*Mənbə: DSK*)

Diaqram 2-nin məlumatlarından göründüyü kimi, son 15 ildə ölkədə yeni yaradılan dəyərdə sənaye hər zaman aparıcı rola malik olub və ölkə iqtisadiyyatında hər zaman ən yüksək paya malik olub. Lakin bu pay illər üzrə kəskin dəyişikliklərə məruz qalıb ki, bu da ölkənin sənaye istehsalının kənar təsirlərə yüksək həssaslığını əks etdirir.

Ölkə iqtisadiyyatında il ərzində yaradılan xalis mənfəətdə də sənaye ən yüksək paya malikdir: bu göstəricinin səviyyəsi 2011-ci ildə 66.8 faiz, 2015-ci ildə 41.5 faiz, 2018-ci ildə 57.6 faiz və 2019-cu ildə 54.9 faiz olub[2].

Ölkə iqtisadiyyatında əsas kapitala yönəldilən sərmayələrin də əksər hissəsi məhz sənaye istehsalı sahələrinə yönəldilib: 2005-2020-ci illər dövründə çox zaman əsas kapitala investisiyalarda sənayenin payı 50 faizin üstündə olub (bax: *diaqram 3*).

[2] DSK, https://www.stat.gov.az/source/industry/




**Diaqram 3. 2005-2020-ci illərdə ölkə iqtisadiyyatında əsas kapitala investisiyalarda sənayenin payı, ümumi yekunda xüsusi çəkisi, faizlə** (*Mənbə: DSK*)

Yuxarıda təqdim olunan məlumatlar sənayenin ölkə iqtisadiyyatındakı aparıcı rolunu əks etdirir. Bununla belə, sənaye ölkədə məşğulluğun təmin edilməsində elə də ciddi rol oynamır.

DSK-nın məlumatlarına görə, 2005-2020-ci illər dövründə ölkədə məşğul əhalinin cəmi 7.0-7.5 faizi sənayenin payına düşüb[3].

Göründüyü kimi, ÜDM istehsalında və əsas kapitala investisiya qoyuluşunda əksər hallarda 40-50 faizin üstündə paya malik olan sənayenin əhalinin məşğulluğundakı payı hər zaman 7 faiz ətrafında olub.

DSK-nın məlumatları göstərir ki, 2005-2020-ci illər dövründə sənaye istehsalı həcminin illər üzrə dinamikasında da kəskin yüksəliş və enişlər (volotillik) müşahidə olunur. Belə ki, müvafiq illərin cari qiymətlərində ölkədə sənaye istehsalının illik həcmi 2005-ci ildəki 9.3 milyard manatdan 2011-ci ildə 35 milyard manatadək yüksəlib, sonra 2014-cü ilədək tədricən 32.1 milyard manat səviyyəsinədək azalıb, 2015-ci ildə isə kəskin azalma baş verib və 26.4 milyard manata düşüb, sonrakı illər artım müşahidə olunub və 2018-ci ildə 47.7 milyard manat səviyyəsinə yüksəlib, nəhayət, 2020-ci ildə yenidən kəskin azalma qeydə alınıb (*diaqram 4*).

[3] DSK, Əmək bazarının statistikası. https://www.stat.gov.az/source/labour/




**Diaqram 4. 2005-2020-ci illərdə sənaye məhsulunun dəyəri, faktiki qiymətlərlə, milyard manatla** (*Mənbə: DSK*)

Həm sənaye istehsalının həcminin dinamikasında, həm ölkə iqtisadiyyatında yaradılan yeni yaradılan dəyərdə sənayenin payında baş verən bu volotilliyin, həm də sənayenin ÜDM-in yaradılması və məşğulluğun təmin edilməsindəki payları arasındakı ziddiyyətin səbəblərini bilmək üçün ölkə sənayesinin quruluşunu (strukturunu) araşdırmaq vacibdir.

Quruluş (yaxud struktur) anlayışı istənilən sistemin ən mühüm əlaməti olaraq, onun elementlərinin təşkilolunma qaydasını və qarşılıqlı nisbətlərini əks etdirir. "Struktur" anlayışı dəyişən daxili və xarici mühit şəraitində sistemin bütövlüyünü (tamlığını), onun əsas əlamətlərinin sabit saxlanmasını təmin edən davamlı qarşılıqlı əlaqələrinin məcmusunu əks etdirir[4].

"Struktur" sözü latın dilindən tərcümədə "ardıcıllıq", "yerləşmə", "düzülüş" deməkdir[5].

Sənayenin tərkibinə daxil olan sahələrin ayrı-ayrı göstəricilər üzrə kəmiyyət nisbəti və onlar arasındakı qarşılıqlı əlaqələr sənayenin quruluşu (strukturu) adlanır. Sənayenin strukturu araşdırılarkən aşağıdakı tip quruluşlar fərqləndirilir:

- Sənayenin sektoral quruluşu,
- Sənayenin sahə quruluşu,
- Sənayenin texnoloji quruluşu,
- Sənayenin ərazi (regional) quruluşu,
- Sənayenin institutsional quruluşu və s..

Sənayenin strukturu araşdırılarkən sənaye istehsalının (məhsulunun) dəyər ifadəsində həcmi, sənayedə çalışanların sayı, əsas kapital qoyuluşunun (investisiyanın) məbləği, yeni yaradılan dəyərin miqdarı, mənfəətin (xalis gəlirin) miqdarı və bir sıra başqa göstəricilərdən istifadə olunur.

Sənayenin strukturu statistika və dinamikada öyrənilir. Statistik araşdırma zamanı konkret

[4] https://marxists.architexturez.net/reference/archive/spirkin/works/dialectical-materialism/ch02-s07.html
[5] https://www.azleks.az/az/online-dictionary/struktur

bir zamanda (məsələn, hesabat ilinin sonunda) ölkə sənayesinin quruluşunu yuxarıda sadalanan göstəricilər üzrə vəziyyəti müəyyən edilir. Məsələn, 2020-ci ildə ğlkədə sənaye istehsalının sahə quruluşunu müəyyən etmək üçün həmin ilin ümumi sənaye istehsalında sənayenin hər bir sahəsinin payını hesablamaq lazım olur. Yaxud sənaye istehsalının ərazi quruluşunu öyrənən zaman hesabat ilində ölkənin hər bir bölgəsində (regionda) istehsal olunan sənaye məhsulunun həcmi ölkədə istehsal olunan sənaye məhsulunun ümumi həcmi ilə müqayisə olunur və hər bir bölgənin payı və qarşılıqlı əlaqələri müəyyən edilir.

Araşdırma və təhlillər zamanı həm də müqayisəli statistikadan istifadə olunur. Bu zaman sənayenin iki fərqli zaman anındakı (məsələn, hesabat ilinin əvvəlindəki və sonundakı durumlar yaxud 2010 və 2020-ci illərdəki durumlar) müqayisə olunur və strukturda olan fərqlər yaxud dəyişikliklər müəyyən edilir.

Sənaye quruluşunu dinamikada öyrənən zaman uzun müddət (5, 10, 20, 50 yaxud 100 il və s.) ərzində sənayenin quruluşunda baş verən dəyişikliklər aşkara çıxarılır, onların səbəbləri və təsir göstərən amillər müəyyən edilir.

DSK-nın məlumat bazasında ölkə sənayesinin tərkibində 4 sektor göstərilir:

1) *Mədənçıxarma sənayesi (xam neft, təbii qaz, mineral filizlər və digər mədənçıxarma hasilatı);*
2) *Emal sənayesi (iqtisadi fəaliyyət növləri üzrə çox sayda istehsal sahələrindən ibarətdir;*
3) *Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı;*
4) *Su təchizatı, tullantıların təmizlənməsi və emalı.*

2019-cu ildə sənaye istehsalının sektoral quruluşu aşağıdakı diaqramda təsvir olunub (*diaqram 5*).




**Diaqram 5. 2019-cu ildə Azərbaycanda sənaye istehsalının sektoral strukturu, ümumi yekuna nisbətən, faizlə (cari qiymətlərlə)** (*Mənbə: DSK*)

Diaqram 5-dən aydın görünür ki, ölkə sənayesinin ümumi istehsalının 70 faizinə qədəri mədənçıxarma sənayesinin payına düşür. Burada da xam neft və təbii qaz çıxarılması

hakim mövqedədir: ümumi sənaye məhsulunun 65 faizinə qədəri məhz neft və qazın payına düşür. Emal sənayesində isə ümumi sənaye istehsalının cəmi 25 faizi yaradılır ki, bu da ölkədə emal sənayesinin zəif inkişaf etdiyini əks etdirir.

Bunun nəticəsidir ki, 2019-cu ildə ölkə sənayesində yaradılan yeni dəyərin 85 faizindən çoxu məhz mədənçıxarma sənayesinin, o cümlədən 82 faizindən çoxu neft-qaz hasilatının payına düşüb. İl ərzində sənayedə yaradılan yeni dəyərin yalnız 12 faizi emaı sənayesi sahələrində baş verib (*diaqram 6*).




**Diaqram 6. 2019-cu ildə Azərbaycan sənayesində yaradılmış ÜDM-in sektoral strukturu, ümumi yekuna nisbətən, faizlə (cari qiymətlərlə)** (*Mənbə: DSK*)

DSK-nın məlumatına görə, 2019-cu ildə Azərbaycanın ixracının 91 faizi xam neft, təbii qaz və neft məhsullarının payına düşüb[6].

Bu məlumatlar yuxarıdakı 3-cü (ÜDM-də sənayenin payı) və 4-cü (sənaye istehsalının dinamikası) diaqramlarda qeyd olunan volotilliyin başlıca səbəbini ortaya qoyur: ölkədə sənaye istehsalının və sənayedə yeni yaradılan dəyərin dinamikası xam neft və təbii qazın hasilatı və ixracı həcmlərindən və dünya bazarında neftin qiymətlərindən asılı olaraq dəyişir. Azərbaycanda xam neft hasilatının və ixracının həcmlərinin artdığı və neftin qiymətlərinin yüksək olduğu illərdə (2005-2011-ci illər dövrü) sənaye istehsalının həcmində və yeni yaradılan dəyərdə artımlar olub, 2014-2015-ci illərdə neftin qiymətindəki kəskin azalma sənaye istehsalının azalması ilə nəticələnib, sonradan manatın devalvasiyası və neftin qiymətində baş verən artım sənaye istehsalının artımına gətirib çıxarıb, nəhayət, 2020-ci ildə neftin qiymətindəki kəskin azalma və neft hasilatı həcmindəki azalma ümumi sənaye istehsalının da kəskin azalması ilə nəticələnib.

Neft-qaz hasilatı sənayesinin hakim mövqeyi sənaye istehsalının regional strukturuna da

[6] DSK, Xarici ticarət statistikası, https://www.stat.gov.az/source/trade/

birbaşa təsir göstərir; ölkənin neft-qaz hasilatı yataqlarının əsasən məhz Abşeron arxipelaqı və Xəzər dənizinin şelfində yerləşməsinin[7] nəticəsidir ki, sənaye istehsalının 90 faizinə qədəri Bakı şəhəri və Abşeron iqtisadi rayonunun payına düşür. Diaqram 7-də 2019-cu ildə sənaye istehsalının ölkənin iqtisadi rayonları üzrə strukturu təqdim olunub. Diaqramdan göründüyü kimi, 2019-cu ildə ümumi sənaye istehsalının 89.6 faizi Bakı və Abşeron iqtisadi rayonundadır.




**Diaqram 7. 2019-cu ildə Azərbaycanda sənaye istehsalının iqtisadi rayonlar üzrə strukturu, ümumi yekuna nisbətən, faizlə (cari qiymətlərlə)** (*Mənbə: DSK*)

2019-cu ildə ölkədə istehsal olunan ümumi sənaye məhsulunun 4.6 faizi Aran, 2.3 faizi Gəncə, 1.0 faizi Şəki-Zaqatala, 0.7 faizi Quba-Xaçmaz, 0.4 faizi Lənkəran, 0.2 faizi isə Dağlıq Şirvan iqtisadi rayonlarının payına düşüb. Naxçıvan Muxtar Respublikasında istehsal olunan sənaye məhsulu ölkə üzrə ümumi sənaye məhsulunun cəmi 2.4 faizi qədər olub.

Sənaye istehsalının sahə quruluşu həm də ölkədə emal sənayesinin hansı sahələrinin və necə inkişaf etdiyini görməyə imkan verir.

2017-2019-cu illərdə ölkədə sənaye istehsalının sahə quruıuşunu əks etdirən 1-ci cədvəlin məlumatlarından aydın görünür ki, ümal sənayesində ümumi sənaye məhsulunun təqribən 25 faizi yaradılır. Lakin emal sənayesinə həm də neft məhsullarının emalı daxildir və cədvəldən görünür ki, ölkədə ümumi sənaye istehsalının təqribən 6 faizi neft məhsulları istehsalından ibarətdir.

[7] SOCAR-ın illik hesabatı, 2019 https://socar.az/socar/az/economics-and-statistics/economics-and-statistics/socar-reports

Yuxarıda qeyd etmişdik ki, son illər ümumi sənaye istehsalının 65 faizinə qədəri xam neft və təbii qaz hasilatının payına düşüb. Neft məhsulları istehsalının payı da buraya əlavə edildikdə, məlum olur ki, ölkənin sənaye istehsalının 70 faizindən çoxu neft-qaz sənayesində baş verir.

Cədvəl 1-in məlumatlarından görmək olar ki, emal sənayesi sahələri arasında (neft məhsulları istehsalı istisna olmaqla) illik istehsal həcmi ümumi sənaye istehsalının 1 faizi və bundan çox olan bir neçə sahə var. Bunlara aşağıdakılar aiddir:

- *qida məhsullarının istehsalı (7 faizdən bir qədər çox),*
- *tikinti materialları istehsalı (1.6 faiz),*
- *kimya sənayesi (1.3 faiz),*
- *metallurgiya sənayesi (1.2 faiz), maşın və avadanlıqların quraşdırılması və təmiri (1.1 faiz).*

Bu sadalanan sahələr aşağı və orta aşağı texnoloji məhsul qruplarına aiddir. Ümumiyyətlə, cədvəldən aydın görünür ki, ölkəmizdə emal sənayesinin yüksək və orta yüksək texnoloji məhsul qruplarının istehsalı[8] (elektronika, kompüter, rəqəmsal avadanlıqlar, əczaçılq məhsulları, tibbi avadanlıqlar, kimyəvi məhsullar və s.) kimi sahələr son dərəcə zəif inkişaf edib.

**Cədvəl 1**

**Sənaye istehsalının sahə strukturu,**
**ümumi yekuna nisbətən, müvafiq illərin faktiki qiymətləri əsasında, faizlə**

| | 2017 | 2018 | 2019 |
|---|---|---|---|
| **Bütün sənaye** | **100** | **100** | **100** |
| **Mədənçıxarma sənayesi** | **70.3** | **73.3** | **69.9** |
| **Emal sənayesi** | **24.4** | **22,0** | **25.1** |
| Qida məhsullarının istehsalı | 7.4 | 6.4 | 7.6 |
| İçki istehsalı | 0.7 | 0.6 | 0.9 |
| Tütün məmulatlarının istehsalı | 0.1 | 0.1 | 0.5 |
| Toxuculuq sənayesi | 0.4 | 0.5 | 0.6 |
| Geyim istehsalı | 0.3 | 0.2 | 0.2 |
| Dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı | 0.05 | 0.1 | 0.0 |
| Ağac emalı və ağacdan məmulatların istehsalı | 0.1 | 0,1 | 0.1 |
| Kağız və karton istehsalı | 0.2 | 0.2 | 0.2 |
| Poliqrafiya fəaliyyəti | 0.2 | 0.2 | 0.2 |
| Neft məhsullarının istehsalı | 6.4 | 5.9 | 6.2 |
| Kimya sənayesi | 1.3 | 1.1 | 1.3 |
| Əczaçılıq məhsullarının ist-lı | 0.0 | 0.0 | 0.0 |

[8] http://ec.europa.eu/eurostat/statistics-explained/index.php/Glossary:High-tech_classification_of_manufacturing_industries

| | | | |
|---|---|---|---|
| Rezin və plastik kütlə məmulatların istehsalı | 0.8 | 0.7 | 0.8 |
| Tikinti materiallarının istehsalı | 1.7 | 1.5 | 1.6 |
| Metallurgiya sənayesi | 1.2 | 1.3 | 1.2 |
| Maşın və avad-dan başqa hazır metal məmulatlarının istehsalı | 0.8 | 0.5 | 0.5 |
| Kompüter və digər elektron avadanlıqların istehsalı | 0.2 | 0.2 | 0.2 |
| Elektrik avadanlıqlarının istehsalı | 0.4 | 0.4 | 0.5 |
| Maşın və avadanlıqların ist-lı | 0.5 | 0.4 | 0.5 |
| Avtomobil və qoşquların ist-lı | 0.2 | 0.2 | 0.2 |
| Sair nəqliyyat vasitə-nin ist-lı | 0.03 | 0.0 | 0.0 |
| Mebellərin istehsalı | 0.2 | 0.2 | 0.3 |
| Zərgərlik məm-ları, musiqi alət-i, idman tibb avad-nın ist-lı | 0.1 | 0.1 | 0.2 |
| Maşın və avadanlıqların quraşdırılması və təmiri | 1.1 | 0.9 | 1.1 |
| **Elek. enerjisi, qaz və buxar istehsalı və bölüşdürülməsi** | **4.6** | **4.1** | **4.3** |
| **Su təchizatı, tullantıların təmizlənməsi və emalı** | **0.7** | **0.7** | **0.7** |

(*Mənbə: DSK*)

Apardığımız təhlil də göstərir ki, hazırda Azərbaycan sənayesinin strukturunda çox aydın şəkildə müşahidə olunan aşağıdakı struktur problemləri mövcuddur:

- *Sənaye istehsalının təqribən 70 faizi mədənçıxarma sənayesində, o cümlədən 65 faizi neft-qaz hasilatının payına düşür;*
- *Sənaye istehsalının 70 faizindən bir qədər çoxu, sənayenin yeni dəyərinin 85 faizindən çoxu neft-qaz hasilatı və neft məhsullarının istehsalının payına düşür;*
- *Ölkənin ümumi ixracının 90 faizi xam neft, təbii qaz və neft məhsullarının payına düşür;*
- *Ölkədə emal sənayesinə aid istehsal sahələrinin inkişaf səviyyəsi hələ çox aşağı səviyyədəi: neft məhsulları istehsalı nəzərə alınmazsa, emal sənayesi sahələrində yeni yaradılan dəyər il ərzində sənayedə yaradılan yeni dəyərin 10 faizindən də azdır;*
- *Emal sənayesində fəaliyyət göstərən sahələrdə əsasən aşağı və orta aşağı texnoloji məhsul qruplarına aid məhsullar istehsal olunur;*
- *Sənaye istehsalının 90 faizinə qədəri Bakı şəhəri və Abşeron iqtisadi rayonunun ərazində baş tutur.*

## 2. Ölkə sənayesinin strukturunun formalaşmasına təsir göstərən amillər

Sənayenin quruluşu dinamik və dəyişkəndir. Hər bir ölkədə sənayenin quruluşunun formalaşmasına və dəyişilməsinə təsir göstərən çoxsaylı amillər var. Həmin amillərin aşkarlanması və öyrənilməsi sənayenin quruluşunun təkmilləşdirilməsi siyasətinin təşkili üçün xüsusi əhəmiyyət kəsb edir. Belə amillər sırasına aşağıdakıları aid etmək olar:

- ***Təbii sərvətlərin mövcudluğu, ehtiyatları (potensialı) və coğrafi yerləşməsi***:

  *– Azərbaycanın zəngin neft-qaz ehtiyatlarına malik olması hər zaman ölkə sənayesinin inkişafında aparıcı rol oynayıb. Azərbaycanda sənayenin formalaşması və inkişafı tarixindən danışanda da göstərmişdik ki, Azərbaycan ərazisində sənaye münasibətlərinin formalaşması məhz neft hasilatından başlayıb. Ölkəmiz siyasi müstəqilliyini bərpa etdikdən sonra da ölkəyə valyuta gətirməyin və iqtisadi-sosial inkişafın əsasında dayanan neft-qaz sənayesi olub. Hazırda ölkəmizin sənayesində neft-qaz sənayesi yüksək xüsusi çəkiyə malikdir. Ölkəmiz zəngin təbii-xammal ehtiyatlarına, mineral filiz və qeyri-filiz ehtiyatlarına malikdir ki, bunların əsasında müxtəlif sənaye sahələri formalaşmaqdadır. Ölkədə təbii ehtiyatların bir və ya bir neçə növünün ehtiyatlarının bol olması sənayenin və bütünlüklə iqtisadiyyatının birtərəfli inkişafına, xammal sahələrindən asılı qalmasına gətirib çıxara bilər;*

- ***"Keçilmiş yoldan asılılıq" (yaxud "tarixin mirası"):***

\- *1920-1991-ci illər dövründə Azərbaycanın SSRİ-nin tərkibində olması, Sovet iqtisadiyyatına məxsus sərt inzibati idarəetmə sistemində yaşaması, sahibkarlığın və rəqabətin qadağan olması müstəqillik qazandıqdan sonra ölkədə bazar münasibətlərinə əsaslanan milli sənayenin yaradılmasında ciddi problemlər yaratmaqdadır. Həm də keşmiş SSRİ-nin tərkibində olan zaman Azərbaycanda formalaşmış sənaye əsasən məhz böyük imperiyanın iqtisadi maraqlarına uyğun qurulmuşdu və müstəqil Azərbaycanın maraqlarına və milli iqtisadiyyatın tələblərinə cavab verə bilmirdi. Həm də SSRİ-nin dağılmasından sonra həm respublikalar arasında, həm də keçmiş sosialist ölkələri arasında iqtisadi əlaqələrin qırılmasının nəticəsi olaraq ölkəmizdə də mövcud sənaye müəssisələrinin əksəriyyəti müxtəlif obyektiv və subyektiv səbəblərdən fəaliyyətini davam etdirə bilmədilər. Müasir biznes və sahibkarlıq mədəniyyətinin, habelə xüsusi mülkiyyətin və investor qabiliyyətlərinin yoxluğu ölkədə sahibkarlığın və rəqabətli sənayenin yaranmasında ləngimələrin olmasına gətirib çıxarıb;*

- ***Cəmiyyətin inkişaf səviyyəsi (sosial-iqtisadi, mədəni və demoqrafik amillər***):

\- *Əhalinin yaşayış səviyyəsi, gəlirlərinin səviyyəsi, adət-ənənələri, milli-mənəvi dəyərləri, dini xüsusiyyətləri, əhalinin sayı, yaş və sosial strukturu, təhsil səviyyəsi və sair amillər onların zövqlərini, alıcılıq qabiliyyətini, tələbin strukturunu müəyyən etməklə bazarların həcminə və quruluşuna təsir göstərir. Sənaye məhsullarına olan*

*tələbatın strukturunun dəyişilməsi isə yeni sənaye sahələrinin meydana çıxmasına, bəzi sənaye sahələrinin sıradan çıxmasına gətirib çıxarır;*

- ***Dövlətin iqtisadi və investisiya siyasəti, habelə dövlət tənzimlənməsinin təsirləri***:

- *Həm inkişaf etmiş sənaye ölkələrinin, həm də gec sənayeləşmiş ölkələrin təcrübəsi sübut edir ki, böhran şəraitində ölkədə iqtisadi inkişafın, xüsusilə sənaye inkişafının təmin edilməsində dövlətin düzgün sənaye siyasəti əhəmiyyətli rol oynayır. Dövlət inhisarın qarşısını almaqla rəqabətli bazar mühitini təmin edir. Dövlət xüsusi stimullar sistemi yaratmaqla kapitalın sahələrarası axınlarında perspektiv inkişaf baxımından zəruri hesab etdiyi sahələrin xeyrinə dəyişikliklərə nail olur ki, bu da sənayenin sahə strukturunda dəyişikliklərə gətirib çıxarır. Dövlət regional inkişafı təmin etmək üçün bölgələrdə sənaye müəssisələri və sənaye sahələrinin yaranmasında birbaşa və dolayı yollarla iştirak edir və* s.;

- ***Ticarət qaydaları və xarici ticarət əlaqələri***:

  *– Ölkə iqtisadiyyatının, o cümlədən sənayesinin dünya iqtisadiyyatına inteqrasiya səviyyəsi də sənayenin sahə quruluşuna birbaşa təsir göstərir. Müqayisəli üstünlüklər nəzəriyyəsinə görə, hər bir ölkə müqayisəli üstünlüklərə malik olduğu sənaye sahələrində daha səmərəli ixtisaslaşmaqla dünya bazarına daha rəqabətli məhsullar çıxara bilər. Ölkənin sənaye müəssisələrinin rəqabət qabiliyyətli məhsul buraxması məhsulun bir hissəsinin dünya bazarına çıxarılmasına imkan verir ki, bu da müvafiq sənaye sahələrinin mövqeyini gücləndirir. Əksinə, hansı müəssisələr rəqabət qabiliyyətli məhsul buraxa bilməsələr, onlar yerli bazarlarda da mövqelərini itirməli olur ki, bu müvafiq sənaye sahələrinin aradan çıxması ilə nəticələnə bilər. Bununla yanaşı, Dünya Ticarət Təşkilatı kimi beynəlxalq ticarət qurumlarına yaxud regional iqtisadi əməkdaşlıq təşkilatlarına üzvlük yerli məhsulların dünya və regional bazarlarda satşına əlveriili şərtlər təmin edə bilər;*

- ***İnfrastruktur (istehsal və bazar) amilləri***:

  *– Ölkədə və ölkə boyu istehsal infrastrukturunun – elektrik, qaz, su, nəqliyyat, rabitə və kommunikasiya sistemlərinin təminat səviyyəsi və durumu sənaye müəssisələrinin xərclərinin səviyyəsinə təsir göstərməklə sənaye sahələrinin yaranmasına əhəmiyyətli təsir göstərir. Bununla yanaşı, xüsusilə bölgələrdə bank və digər işgüzar xidmətlərin təşkili və yayılma dərəcəsi də müəssisələrin fəaliyyətinin təşkili ilə bağlı qərarların qəbulunda həlledici rol oynayır;*

- ***Elmi-texniki amillər***:

  *– Ölkədə və dünyada elm və texnikanın inkişafı, yeni ixtiralar və kəşflər, məhsul və proses innovasiyaları hər zaman yeni məhsullar, yeni texnologiyalar, yeni proseslər meydana çıxarmaqla yeni sənaye sahələrinin meydana çıxmasına səbəb olur;*

- ***Dünya sənayesində baş verən proseslər:***

*– Dünya sənayesi sürətlə dəyişir. Artıq rəqəmsal texnologiyalar sənaye istehsalının kütləvi şəkildə avtomatlaşdırılmasını və robotlaşdırılmasını təmin edir. Dünyada 4-cü sənaye inqilabı baş verməkdədir. Ölkə sənayesinin strukturu həm də dünyada baş verən belə proseslərin ölkə sənayesinə təsirləri altında formalaşır...*

Göstərilən amillərin birgə mövcudluğu və onların növbəliklə deyil, eyni vaxtda icrası sənayenin sahə quruluşunun təkmilləşməsi və ya dəyişilməsində ciddi təsiredici rola malikdir. Bunlardan hər hansı birinin təsirinin artması müəyyən dövrdə ölkədə həyata keçirilən iqtisadi siyasətdən bilavasitə asılıdır.

Araşdırmada zamanı sadalanan amillərin hər birinin təsirini ayrılıqda təhlil etmək bu, tədqiqatın predmetinə uyğun deyil. Bununla belə, Azərbaycan siyasi müstəqilliyini bərpa etdiyi 1991-ci ildən ötən 30 ildə ölkədə sənaye istehsalının strukturunda baş verən dəyişiklikləri 2-ci cədvəlin məlumatlarından izləmək mümkündür. Cədvəldə 1990-cı ildə ölkəmizin sənaye istehsalında payı yüksək olan bir sıra emal sənayesi sahələrin göstəricilərinin sonrakı illərdə necə dəyişdiyi aydın görünür.

Cədvəldən aydın olur ki, siyasi müstəqilliyimizi bərpa etmək ərəfəsində Azərbaycanda sənaye məhsulunun ümumi həcmində mədənçıxarma sənayesi yox, məhz emal sənayesi 90 faizlik paya (o cülədən qida məhsullarının istehsalı 25 faizlik paya) malik olub. Lakin sonradan, məhz yuxarıda qeyd etdiyimiz kimi, SSRİ-nin dağılmasından sonra ölkədəki emal sənayesi müəssisələrinin əksəriyyəti, xüsusilə neft maşınqayırma müəssisələri, qida, toxuculuq və geyim istehsalı müəssisələri fəaliyyətlərini davam etdirə bilməyiblər.

**Cədvəl 2**

**1990-2019-cu illər dövründə Azərbaycanda sənaye istehsalının sahə strukturunun dəyişməsi,**

**ümumi yekuna nisbətən, müvafiq illərin faktiki qiymətləri əsasında, faizlə**

| | **1990** | **1995** | **2000** | **2005** | **2010** | **2011** | **2015** | **2016** | **2017** | **2018** | **2019** |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Bütün sənaye** | **100** | **100** | **100** | **100** | **100** | **100** | **100** | **100** | **100** | **100** | **100** |
| **Mədənçıxarma sənayesi** | **5.3** | **19.6** | **53.4** | **67.0** | **78.9** | **80.5** | **62.1** | **65.6** | **70.3** | **73.3** | **69.9** |
| *O cümlədən: Xam neft və təbii qaz hasilatı* | *4.8* | *19.4* | *46.7* | *63.8* | *76.4* | *78.0* | *55.8* | *58.4* | *61.1* | *65.9* | *62.3* |
| **Emal sənayesi** | **90.1** | **59.4** | **31.3** | **25.9** | **15.9** | **14.3** | **29.9** | **27.6** | **24.4** | **22,0** | **25.1** |
| ***O cümlədən:*** | | | | | | | | | | | |
| Qida məhsullarının istehsalı | 24.6 | 9.7 | 1.9 | 2.4 | 1.5 | 1.5 | 8.8 | 9.1 | 7.4 | 6.4 | 7.6 |
| Toxuculuq sənayesi | 14 | 8.4 | 0.8 | 0.4 | 0.1 | 0.2 | 0.1 | 0.3 | 0.4 | 0.5 | 0.6 |
| Geyim istehsalı | 3.8 | 0.7 | 0.3 | 0.2 | 0.1 | 0.1 | 0.3 | 0.3 | 0.3 | 0.2 | 0.2 |

| | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Neft məhsullarının istehsalı | 6.9 | 26.8 | 18.5 | 9.9 | 8.2 | 7.4 | 9.4 | 7.7 | 6.4 | 5.9 | 6.2 |
| Kimya sənayesi | 5.3 | 3.0 | 3.3 | 2.4 | 0.45 | 0.6 | 1.3 | 1.1 | 1.3 | 1.1 | 1.3 |
| Tikinti materiallarının istehsalı | 3.2 | 1.6 | 0.8 | 1.6 | 1.7 | 0.8 | 1.7 | 1.4 | 1.7 | 1.5 | 1.6 |
| Metallurgiya sənayesi | 3.7 | 1.2 | 0.1 | 2 | 0.5 | 0.6 | 0.8 | 0.9 | 1.2 | 1.3 | 1.2 |
| Maşın və avadanlıqların ist-lı | 9.0 | 2.2 | 1.0 | 0.4 | 0.6 | 0.5 | 0.8 | 0.5 | 0.5 | 0.4 | 0.5 |
| **Elek. enerjisi, qaz və buxar istehsalı və bölüşdürülməsi** | **4.1** | **19.2** | **13.6** | **5.7** | **4.6** | **4.7** | **7.1** | **6.0** | **4.6** | **4.1** | **4.3** |
| **Su təchizatı, tullantıların təmizlənməsi və emalı** | **0.5** | **1.8** | **1.7** | **1.0** | **0.6** | **0.5** | **0.9** | **0.8** | **0.7** | **0.7** | **0.7** |

(Mənbə: DSK)

Azərbaycan siyasi müstəqilliyini bərpa etdikdən sonrakı dövrdə ölkənin iqtisadi və maliyyə imkanlarının məhdudluğu, iqtisadi böhran və müharibə vəziyyətində olması ölkəyə birbaşa xarici investisiyaların gəlməsini mümkünsüz edirdi. O dövrdə xarici investorlar üçün ölkədə yeganə cəlbedici resurs neft-qaz ehtiyatları ola bilərdi. Bunu əsas tutan hökumət məhz neft-qaz sektoruna xarici investisiyaların cəlb edilməsi siyasətinə üstünlük verdi və ölkədə qısa müddətdə 30-dək beynəlxalq neft-qaz sazişi imzalandı. Bu sazişlərin nəticəsi olaraq həm neftqaz sektoruna investisiyalar artdı, ölkədə neft və qaz hasilattı və ixracı səviyyəsi 2005-ci ildən başlayaraq sürətlə artdı. Neft hasilatı və ixracının artması ölkəyə böyük neft gəlirləri əldə etməyə imkan verdi və ölkənin gəlirlərinin, habelə dövlət büdcəsinin gəlirlərinin formalaşmasında neft gəlirləri həlledici rola malik oldu. Hökumət neft gəlirlərinin mühüm bir hissəsini dövlət investisiyaları vasitəsilə iqtisadiyyatın inkişafına, xüsusilə istehsal, kommunal və sosial infrastrukturun yenidən qurulasına yönəltdi. Bu siyasətlər, xüsusilə investisiya siyasəti ölkə sənayesinin strukturuna təsirləri nəticəsində ölkə sənayesinin struturundakı dəyişikliklər 2-ci cədvəldə əks olunan dinamikada baş verdi. DSK-nın müvafiq statistik məlumatları əsasında apardığımız hesablamalara əsasən, 1995-2019-cu illər dövründə ölkə iqtisadiyyatına yönəldilən 210 milyard manatdan çox investisiyanın təqribən 85 milyard manatı (40.5%-i) neft-qaz sənayesinə, qalan 125 milyard manatı isə iqtisadiyyatın bütün digər sahələrinə yönəldilib[9].
DSK-nın məlumatlarına əsasən, 2005-2019-cu illər dövründə ölkə sənayesində əsas kapitala cəmi 98.2 milyard manatlıq investisiya yönəldilib ki, bunun 55.9 milyardı (60%-i)

[9] DSK, Tikinti statistikası https://www.stat.gov.az/source/construction/

xarici investisiya, qalan 42.2 milyardı isə dxili mənbələr hesabına olub[10]. Bu dövrdə sənayeyə yönəldilən birbaşa xarici investisiyanın 51.6 milyard manatı (yaxud 92.3%-i) neft-qaz sənayesinə yönəldilib. Qeyd olunan dövrdə bütün mənbələr hesabına emal sənayesi sahələrində əsas kapitala yönəldilən investisiyaların məbləği cəmi 10.5 milyard manat olub ki, eyni dövdə sənayeyə yönəldilən cəmi investisiyanın 10.7%-i qədər deməkdir. Emal sənayesinə yönəldilən investisiyanın 9.5 milyard manatı (yaxud 90.5 %-i) daxili investisiyalardan ibarət olub. 2005-2019-cu illər dövründə ölkənin emal sənayesində əsas kapitala yönəldilən xarici investisiyanın miqdarı 994.3 mln manat olub ki, bu da həmin dövrdə sənayeyə yönəldilən xarici investisiyanın 1.8 faizi deməkdir. Bunu da qeyd etmək vacibdir ki, bu investisiyanın 798 milyon manatı (yaxud 80 faizi) məhz 2019-cu ildə baş verib – bunun 778 mln. manatı rezin və plastik kütlə məmulatlarının istehsalına yönəldilib. Bu isə o deməkdir ki, 2005-2018-ci illər dövründə ölkənin emal sənayesinə yönəldilən birbaşa xarici investisiyanın məbləği 196.3 mln. manat olub.
DSK-nın məlumatına əsasən, 2000-2019-cu illəri əhatə edən 20 il ərzində ölkənin emal sənayesinə yönəldilən cəmi xarici investisiyanın ümumi məbləği 1.18 milyard manat olub. Yuxarıda artıq vurğuladığımız kimi, bunun 798 milyon manatı 2019-cu ildə yatırılıb. Bunu nəzərə almadıqda 2000-2018-ci illər dövründə emal sənayesinə yönəldilən xarici investisiyanın məbləği 377.1 mln. manat təşkil edir. Bu vəsaitin illər üzrə bölgüsü aşağıdakı diaqramda təqdim olunub (*diaqram 8*).




**Diaqram 8. 2000-2018-ci illərdə ölkəmizin emal sənayesində əsas kapitala yönəldilən birbaşa xarici investisiyanın məbləği, milyon manat** (*Mənbə: DSK*)

Yuxarıdakı məlumatlardan və diaqram 8-in məlumatlarından aydın görünür ki, ölkəmizin emal sənayesi xarici investorlar üçün cəlbedici deyildir. Bununla belə 2009-cu ilədək bu sahələrə az da olasa investisiyalar yönəldilsə də, 2020-2016-cı illər dövründə xarici investorlar bu sektora heç maraq göstərməmişdir.

[10] DSK, Sənayedə əsas kapitala yönəldilən investisiyalar https://www.stat.gov.az/source/industry/

DSK-nın məlumatına əsasən, 2005-2019-cu ilər dövründə emal sənayesində əsas kapitala yönəldilən daxili investisiyaların ümumi məbləği 9.5 milyard manat olub[11]. Bunun 1.1 milyard manatı (yaxud 11.6%-i) qida məhsulları istehsalına, 1.05 milyardı (11.1%-i) neft məhsulları istehsalına, 952.0 mln. manatı (10%-i) tikinti materialları istehsalına, 911.5 mln. manatı (9.6%-i) rezin və plastik kütlə məmulatları istehsalına, 552.4 mln. manatı (5.8%-i) kimya sənayesinə, 368.6 mln. manatı sair nəqliyyat vasitələri istehsalına, 330.9 mln. manatı mebel istehsalına, 241.9 mln. manatı maşın və avadanlıqların quraşdırılması və təmirinə, 227.9 mln. manatı tütün məmulatları istehsalına, 124.5 mln. manatı geyim istehsalına, 88.3 mln. manatı toxuculuq sənayesinə, 10.4 mln. manatı kompüter və digər elektron avadanlıqların istehsalına sərf olunub. Göründüyü kimi, emal sənayesinə yönəldilən daxili investisiyalarda da yüksək və orta yüksək texnoloji məhsul qrupu sahələri cüzi paya malikdir.

[11] Yenə orada

## 3. Sənayenin struktur problemlərinin həlli istiqamətində indiyədək həyata keçirilən tədbirlər və əldə olunan nəticələr

Hər bir ölkə sənayesinin sahə quruluşunun optimal səviyyəsini formalaşdırmaqla, iqtisadiyyatın səmərəli fəaliyyətini təmin etmək, ictimai istehsalın iqtisadi səmərəliliyini yüksəltmək və əhalinin rifahının yaxşılaşdırılmasına nail olmaq kimi iqtisadi və sosial problemlərin həllini sürətləndirmək olar. Sənayenin sahə quruluşu və onun təkmilləşdirilməsi bütünlükdə ölkə iqtisadiyyatının quruluşunu müəyyən edir və özü təkmilləşdikcə sonuncunun da mütərəqqiliyini təmin etmiş olur.

Azərbaycan sənayesinin strukturunun təkmilləşdirilməsi, ölkəsə iqtisadiyyatın və ixracın şaxələndirilməsi və qeyri-neft sənayesinin inkişafı məsələləri 2010-cu ildən başlayaraq hökumətin iqtisadi siyasətinin əsas prioritetləri sırasındadır və bu vəzifənin həllinə yönəlik bir sıra siyasət sənədləri (dövlət proqramları və strategiyalar) qəbul edilmiş və həyata keçirilməkdədir.

Hələ 2012-ci ilin dekabrın 29-da Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə təsdiq edilmiş **"Azərbaycan 2020: Gələcəyə baxış"** İnkişaf Konsepsiyasında qeyd edilirdi ki, hazırkı mərhələdə qarşıda duran əsas vəzifə iqtisadiyyatın şaxələndirilməsini sürətləndirmək, neft gəlirlərinin səviyyəsindən asılı olmayaraq qeyri-neft sektorunun yüksək inkişaf tempini gələcək illərdə də qoruyub saxlamaq və onun ixrac imkanlarını genişləndirməkdir. Hələ o vaxt ölkə iqtisadiyyatının şaxələndirilməsi, onun rəqabət qabiliyyətinin gücləndirilməsi və ixrac potensialının artırılması baxımından sənayenin strukturunun təkmilləşdirilməsi və inkişafı ölkədə aparılan iqtisadi siyasətin əsas prioriteti kimi bəyan edilmişdi. Elə həmin konsepsiyada Azərbaycanda ixracyönümlü sənaye modelinin inkişafı əsas istiqamət kimi müəyyən edilmişdi.

İqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması və strukturunun təkmilləşdirilməsi baxımından sənayenin inkişafı müasir dövrdə ölkədə aparılan iqtisadi siyasətin əsas prioritetlərindən biridir. Bu məqsədlə Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 26 dekabr tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı" təsdiq edilmişdir.

Həmin Dövlət Proqramında aşağıdakı məqsədlər qoyulmuşdu:

1. *Sənayenin modernləşdirilməsi və strukturunun təkmilləşdirilməsi;*
2. *Qeyri-neft sənayesinin ixrac potensialının artırılması;*
3. *Enerjidən səmərəli istifadə edən, yüksək əlavə dəyər yaradan rəqabətqabiliyyətli sənaye istehsalının genişləndirilməsi;*
4. *Elmtutumlu və innovativ istehsalın genişləndirilməsi;*
5. *Yeni istehsal sahələri üçün ixtisaslı kadrların hazırlanması.*

Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli

Fərmanı ilə ölkənin perspektiv inkişaf hədəflərini və istiqamətlərini müəyyənləşdirmək, onların gerçəkləşdirilməsini təmin etmək məqsədilə 11 strateji yol xəritəsi təsdiq olunub. Onların arasında ölkə sənayesinin strukturuna təsir göstərə biləcək tədbirlərə aşağıdakı sənədlərdə rast gəlinir:

1. *Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi;*
2. *Azərbaycan Respublikasının neft və qaz sənayesinin (kimya məhsulları daxil olmaqla) inkişafına dair Strateji Yol Xəritəsi;*
3. *Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi;*
4. *Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi;*
5. *Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi;*
6. *Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi;*
7. *Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi;*

Son illər ölkədə biznes mühitinin yaxşılaşdırılması istiqamətində bir sıra addımlar atılmışdır. Sahibkarlığın inkişafı məqsədilə həyata keçirilən islahatların tərkib hissəsi kimi, lisenziyalar və icazələr sisteminin tənzimlənməsi və inzibati prosedurların sadələşdirilməsi istiqamətində aparılan kompleks tədbirlər nəticəsində lisenziyalaşdırılan fəaliyyət növlərinin sayı 59-dan 37-yə, icazələrin sayı 330-dan 86-ya endirilmiş, yeni verilən və qüvvədə olan müddətli lisenziyalar müddətsiz müəyyən edilmiş, lisenziyaların verilməsinə görə dövlət rüsumunun məbləğləri təxminən 2 dəfə, regionlar üzrə 4 dəfə azaldılmış, lisenziyaların verilməsi müddəti 15 gündən 10 iş gününə endirilmiş və prosedurlar sadələşdirilmişdir[12].

Emal sənayesi sahələrinin inkişafını təmin etmək məqsədilə son illər Bakıda, Sumqayıtda və ölkənin bir sıra ərazilərində sənaye və texnologiyalar parkları, sənaye məhəllələri yaradılmaqdadır. Regionlarda sənaye istehsalının inkişafı məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 26 fevral tarixli 1077 nömrəli Sərəncamı ilə Mingəçevir Sənaye Parkı, Neftçala Sənaye Məhəlləsi (burada 9 müəssisə və 1 kiçik sahibkarlıq emalatxanası fəaliyyət göstərir) və Masallı Sənaye Məhəlləsi (burada 10 müəssisə fəaliyyət göstərir) yaradılmışdır. Hacıqabul Sənaye Məhəlləsində və Sabirabad Sənaye Məhəlləsinin yaradılması işləri davam etdirilir. Ölkədə xalçaçılığın inkişaf etdirilməsi üçün respublikanın 20 rayonunda "Azərxalça" ASC-nin xalça istehsalı fabrikləri yaradılmışdır.

[12] http://www.e-qanun.az/framework/41320

“Azərbaycan İnvestisiya Şirkəti” ASC, Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi, “Aqrolizinq” ASC, AZPROMO və digər institusional mexanizmlər vasitəsilə regionlarda özəl sektora dəstək göstərilməkdədir. Amma hökumətin qəbul etdiyi və həyata keçirdiyi proqram və strategiyaların belə bolluğuna, son illər ölkədə biznes mühitinin yaxşılaşdırılması istiqamətində atdığı addımlara, habelə ölkədə bir sıra diversifikasiya institutlarının artıq fəaliyyə göstərmələrinə rəğmən, ölkə sənayesinin strukturunun yaxşılaşdırılması, ölkədə qeyri-neft sənayesinin daha da inkişaf etdirilməsi istiqamətində hələ də ciddi uğurlar əldə olunmamışdır. Dünya sənayesində baş verən və sürətlənməkdə olan proseslər, rəqəmsallaşma və sənaye-4.0 prosesləri ölkədə sənayenin strukturunun təkmilləşdirlməsi istiqamətində fəaliyyətlərin gücləndirilməsini və səmərəliliyinin artırılmasını zəruri edir.

# 4. Sənayenin strukturunun təkmilləşdirilməsi istiqamətləri, yolları və mexanizmləri

İqtisadi ədəbiyyatlarda göstərildiyi kimi, iqtisadi artımın mühüm struktur mənbələri istehsal amilləri (xüsusilə təbii resurslar), investisiyalar və innovasiyalar hesab olunur. Hazırda ölkədə innovasiya infrastrukturunun, təhsilin və ümumən "insan kapital"ının inkişaf səviyyəsi qısa müddətdə innovasiyalara əsaslanan inkişaf modelinə keçidi mükünsüz edir. Buna görə də indiki mərhələdə Azərbaycanda iqtisadi artımın əsas mənbəyini yerli və xarici investorların sərmayələri təşkil edə bilər. Belə investisiyalar ölkədə qeyri-neft sektoru sahələrinin, xüsusilə ölkədə son istehlak təyinatlı sənaye məhsulları istehsalının yaradılmasına yönəldilə bilər.

Məlumdur ki, sənaye siyasəti dedikdə ölkədə iqtisadi artım bazasının yaradılması, inkişafı və keyfiyyətcə yeniləşdirilməsi, ölkə iqtisadiyyatının dünya təsərrüfatına səmərəli inteqrasiya olunan rəqabət qabiliyyətli strukturunun formalaşdırılması məqsədilə ölkənin resurs potensialının iqtisadiyyatın sahələri arasında və sahələr daxilində bölgüsünə və yenidən bölgüsünə istiqamətlənmiş məqsədəuyğun və kompleks tədbirlər sistemi başa düşülür.

Sənaye siyasəti – hökumətin müəyyən (prioritet) sahələrin və/yaxud fəaliyyət növlərinin inkişafı üçün daha əlverişli şərait təmin edilməsi hesabına iqtisadiyyatın strukturunun məqsədyönlü şəkildə dəyişdirilməsinə istiqamətlənmiş tədbirlər kompleksidir. Belə siyasət hökumətin emal sənayesinin yaxud onun ayrı-ayrı sahələrinin, habelə iqtisadiyyatın digər sahələrinin artım və inkişafının stimullaşdırılmasına yönəlik rəsmi strateji cəhdləridir.

J. A. Robinson sənaye siyasətini belə izah edir: "Hökumət məqsədyönlü şəkildə sənayeni irəli aparmağa (inkişaf etdirməyə) çalışır".

İqtisadi ədədbiyyatlardan və dünya təcrübəsindən məlum olduğu kimi, ölkədə sənaye istehsalının inkişafının iki modeli mövcuddur: idxalıəvəzləmə modeli və ixracyönümlü sənaye inkişafı modeli. Dünya təcrübəsindən bu da məlum olur ki, XX əsrin 2-ci yarısından sonra dünyanın sənaye inkişafı baxımından geri qalmış bir çox ölkələri idxalıəvəzləmə strategiyası tətbiq etmişdir. Bunlardan uğur qazananları da olub, uğursuzluğa düçür olanları da. Son illərdə həm ayrı-ayrı iqtisadçı-alimlərin, həm də bir sıra beynəlxalq təşkilatların araşdırmalarında ixracyönümlü sənaye inkişafına üstünlük verən ölkələrin daha böyük uğurlara nail olması vurğulanır. Təbii ki, hər iki modelin tətbiqi bir sıra özünəməxsus xüsusiyyətlərə malikdir və bunların tətbiqi bu və ya digər ölkədə çox sayda amillərin və zəruri şərtlərin yaradılmasından keçir.

İdxalı əvəzləmə modeli milli istehsalın inkişafı əsasında daxili bazarın tələblərinin təmin edilməsi strategiyasını əks etdirir. Bu model proteksionist (himayəçilik) siyasətinin yeridilməsini və milli valyutanın kursunun sabit saxlanmasını nəzərdə tutur. Bu model tədiyə balansının strukturunu yaxşılaşdırmağa, daxili tələbin ödənilməsini və məşğulluğu

təmin etməyə imkan verir. Çin və Şimali Koreya ötən əsrin 80-cı illərində bu modelə üstünlük vermişdir.

İxracyönlü sənaye syiasəti modelində ixrac üçün nəzərdə tutulan məhsullar istehsalınını hərtərəfli həvəsləndirilməsi tədbirləri üstünlük təşkil edir. İxracyönlü rəqabətqabiliyyətli sahələrin inkişafı və dəstəklənməsi sənaye siyasətində başlıca istiqamət olur. Bu modelin üstünlüyü ondadır ki, güclü rəqabətqabiliyyətli sahələrin inkişafı yolu ilə, bir tərəfdən, ölkə dünya təsərrüfatına inteqrasiya olunur, dünya bazarlarına və texnologiyalara çıxış əldə edir, digər tərəfdən isə, multiplikativ effekt hesabına digər sahələrin inkişafı üçün şərait yaranır. İxracyönlü sənaye siyasəti modelini uğurla həyata keçirən ölkələr sırasına Yaponiyanı, Cənubi Koreyanı, Çilini, Malayziyanı, Sinqapuru, Tailandı və s. aid etmək olar. Venesuela və Meksika isə bu modeli tətbiq etsələr də, uğur qazana bilmədilər.

Təsadüfi deyil ki, 1961-ci ildə yapon idtisadçısı Kaname Akamatsunun "Uçan qazlar" paradiqması meydana çıxdı. Həmin paradiqma Yaponiyanın nümunəsində ixracyönümlü sənaye modelinin uğurları əsasında ortaya çıxmışdı. K.Akamatsu Cənub-Şərqi Asiyanın gec sənayeləşmiş ölkələrinə Yaponiya təcrübəsindən yararlanmağı tövziyə edirdi[13].

Bununla belə, ayrı-ayrı ölkələrdə bu modellərin tətbiqi nəticələri ilə bağlı tədqiqatlar genişlənməkdədir. XX əsrin 80-ci illərində iqtisadi inkişafı hədəfləyən islahatlara başlamış 43 ölkənin 2000-ci illərədək həyata keçirdikləri siyasətlərinin müqayisəli təhlilini aparan bir qrup iqtisadçı əldə etdikləri nəticələrə görə 2 qrup ölkələri fərqləndiriblər: dayanıqlı iqtisadi artıma nail olan ölkələr (Sinqapur, Malayziya, Koreya, Çin, Tailand, Tayvan, İndoneziya, Vyetnam, Misir, Tunis və s.) və dayanıqlı artımı təmin edə bilməyən ölkələr (əsasən Latın Amerikası ölkələri, və s.).

Böyük həcmlərdə məlumatların analizin sonunda onların gəldiyi nəticəyə görə, ölkələrin dayanıqlı iqtisadi artıma nail ola bilib-bilməmələrində aşağıdakı amillər həlledici rol oynayır:

- *dayanıqlı artımı təmin edən ölkələrin hamısı əsasən sənaye məhsullarının ixracı sahəsində böyük irəliləyişlər əldə ediblər;*
- *milli valyutanın məzənnəsinin süni şəkildə möhkəmlənməsinə yol verilməməsi;*
- *dövlət idarəetmə sektorunun miqyası;*
- *xarici ticarətin liberallaşdırılması;*
- *iqtisadi imkanlara əlçatanlıq (məsələn, təhsilin səviyyəsi, maliyyəyə çıxış və s.);*
- *nəhayət, institutların təkmilləşdirilməsi.*

İqtisadiyyatın tənzimlənməsi sahəsində qabaqcıl ölkələrin mütərəqqi təcrübələri ölkəmizdə dövrün tələbləri nəzərə alınmaqla və yerli şəraitə uyğunlaşdırılmaqla tətbiq edilməlidir. Son 20-30 ildə iqitsadi inkişafda böyük uğurlara nail olmuş və inkişaf etmiş sənaye ölkələri səviyyəsinə yüksəlmiş Şərqi və Cənub-Şərqi Asiya ölkələrinin təcrübəsi göstərir ki, onların bu uğurlarının kökündə tənzimləmə mexa-nizmlərindən düzgün istifadə dayanır. Yaponiya,

[13] Akamatsu, Kaname (1961): A Theory of Unbalanced Growth in the World Economy. In: Weltwirtschaftliches Archiv, Hamburg, no.86

Cənubi Koreya, Malayzya, Tayvan və Çin kimi gec sənayeləşmiş ölkələrin təcrübəsini araşdıran bir qrup ABŞ iqtisadçısı (Amsden A., İntriliqeytor M., Makkintayr M. və Teylor L.) belə qənaətə gəliblər ki, *xüsusilə keçid dövrlərində sənayenin yenidən qurulmasında və gücləndirilməsində dövlətin fəal rolu olmalıdır.* Onlar iqtisadi islahatların həyata keçirilməsi zamanı ölkələri diqqətli olmağa, hər şeyi bazarın ixtiyarına buraxmağa tələsməməyə çağırırlar. Onların fikrincə, real bazar rəqabətinin yaranmadığı, qanunlara ciddi əməl edilməsinə nail olunmadığı və yerli istehsalın kifayət qədər güclənmədiyi şəraitdə həyata keçirilən liberallaşdırma və özəlləşdirmə islahatları əksər hallarda yeni qurulan milli iqtisadiyyatların güclənməsinə deyil, daha da zəifləməsinə gətirib çıxara bilər. Onlar hökumətə başqa ölkələrin təcrübələrindən istifadə zamanı ehtiyatlı olmağı, belə təcrübələri müxaniki surətdə tətbiq etməkdən çəkinməyi və yerli şəraiti, milli adət və ənənələri nəzərə almaqla tətbiq etməyi tövsiyə edirlər[14].

Hökumətin səmərəli investisiya siyasətinin formalaşdırılması və həyata keçirilməsi, ilk növbədə, investisiya fəallığına mane olan bütün (bazar və qeyri-bazar xarakterli) səbəblərin düzgün müəyyən edilməsini, bunların hər birinin aradan qaldırılması üçün zəruri siyasi alət və vasitələrinin düzgün seçilməsini, işlənilmiş siyasətin düzgün icra edilməsini nəzərdə tutur. Həm də bu zaman nəzərə alınmalıdır ki, müxtəlif ölkələrdə və iqtisadiyyatın müxtəlif sahələrində eyni siyasət alətləri və vasitələri fərqli nəticələr verə bilər, habelə zaman keçdikcə və vəziyyət dəyişdikcə tətbiq olunan siyasət alət və vasitələrinin təsirləri də dəyişilir.

Harvard Universitetinin professoru, dünyanın bir çox ölkələrində hökumətlərin müxtəlif dövrlərdə həyata keçirdikləri islahatları davamlı olaraq araşdıran D. Rodrik *siyasətin icrası üçün istifadə olunan alət və tədbirləri institutlarla qarışıq salmamağın vacibliyini* vurğulayır. O bildirir ki, tarif və vergi rejimlərinin dəyişilməsi məsələnin daha sadə tərəfidir. Bunun daha önəmli tərəfi *dövlət sektoru daxilində davranış modellərinin, xüsusilə hökumətin özəl sektora münasibətlərinin necə dəyişilməsidir*. İslahatlarda önəmli olan yeni kəmiyyət məhdudiyyətləri və tariflərin səviyyəsi yox, *bundan sonra qərarların necə qəbul edilməsi və necə icra edilməsinə münsibətdə islahatların yaradacağı yeni qaydalar və gözləntilərdir*. Belə islahatlar həm də inkişafın təmin edilməsi siyasətinin necə olması ilə bağlı yeni fəlsəfi yanaşmanı ortaya çıxarır. Ona görə də bu cür islahatlar nəhəng miqyaslı institutsional islahatlara çevrilir[15].

Daha sonra D. Rodrik yazır: "*İnstitutsioal islahatlar yalnız siyasətin parametrlərini yox, həm də indiyəcən mövcud olmuş və inkişafa mane olan davranış stereotiplərini dəyişməlidir*".

---

[14] Амсден А. и др. Политическая экономия развития о стратегии эффективного перехода // Вестник Московского Университета. Серия Экономика. 1996, № 1. стр.32- 47

[15] Д. Родрик. Реформа торговой политики как институциональная реформа. http://siteresources.worldbank.org/INTRANETTRADE/Resources/Pubs/Handbook_rs_Rodrik_ch1.pdf

Ev təsərrüfatlarının davranışları və investisiya qərarları elə istiqamətlərdə dəyişilir ki, iqtisadiyyatın "daha dərin parametrləri" haqqında biliklər olmadan onları izləmək və tənzimləmək çətinləşir[16].

Sənayenin diversifikasiyası bir sıra ənənəvi istehsal sahələri ilə yanaşı, ənənəvi olmayan, yeni istehsal sahələrinin qurulmasını tələb edir:

- *İlk növbədə yerli xammala əsaslanan rəqabətqabiliyyətli ağır sənaye istehsalının genişlənməsi zəruridir;*
- *Azərbaycanda emal sənayesinin digər sahələrində yeni istehsal güclərinin yaradılması üçün geniş imkanlar vardır;*
- *Proqramın icra müddətində yüksək texnologiyaların tətbiqi ilə yeni istehsal sahələrinin fəaliyyətə başlaması da prioritetlər sırasındadır. Yüksək texnologiyalı istehsal böyük həcmdə araşdırma və inkişaf etdirmə fəaliyyəti tələb etdiyi üçün bu sahədə prioritetlərin bir neçə konkret sahə ilə məhdudlaşdırılması məqsədəuyğundur.*

Sənaye siyasətinin əsas məqsədlərindən biri də sənayenin rəqabət qabiliyyətinin artırılmasına yönəldilmiş tədbirlərin həyata keçirilməsindən ibarətdir. Bu tədbirlər sahəvi araşdırmalar nəticəsində müxtəlif sektorların xüsusiyyətlərinə uyğun olaraq əlavə tədbirlərlə dəstəklənməlidir. Sənayenin rəqabət qabiliyyətinin yüksəldilməsi məqsədi ilə:

- *enerji tariflərinin tənzimlənməsində çeviklik artırılmalı,*
- *çevik tarif siyasəti əlverişli vergi və gömrük rejimi və çevik məzənnə siyasəti ilə müşayiət edilməli,*
- *sənayeyə investisiyaların cəlb edilməsi üçün imkanlar genişləndirilməli,*
- *dövlətin güzəştli kreditlərindən istifadə və lizinq imkanları artırılmalı,*
- *qeyri-neft sənayesinə investisiyaların təşviqi mexanizmi yaradılmalı,*
- *dövlət vəsaiti hesabına həyata keçirilən infrastruktur layihələrinin özəl sektorun investisiyaları ilə əlaqələndirilməsi mexanizmi qurulmalı,*
- *habelə dövlət-özəl tərəfdaşlıq modellərinin tətbiqinin genişləndirilməsi diqqət mərkəzində saxlanılmalıdır.*

[16] D. Rodrik. Yenə orada

# Nəticə və tövsiyələr

Apardığımız tədqiqat göstərir ki, hazırda Azərbaycan sənayesinin strukturunda çox aydın şəkildə müşahidə olunan aşağıdakı struktur problemləri mövcuddur:

- *Sənaye istehsalının təqribən 70 faizi mədənçıxarma sənayesində, o cümlədən 65 faizi neft-qaz hasilatının payına düşür;*
- *Sənaye istehsalının 70 faizindən bir qədər çoxu, sənayenin yeni dəyərinin 85 faizindən çoxu neft-qaz hasilatı və neft məhsullarının istehsalının payına düşür;*
- *Ölkənin ümumi ixracının 90 faizi xam neft, təbii qaz və neft məhsullarının payına düşür;*
- *Ölkədə emal sənayesinə aid istehsal sahələrinin inkişaf səviyyəsi hələ çox aşağı səviyyədəi: neft məhsulları istehsalı nəzərə alınmazsa, emal sənayesi sahələrində yeni yaradılan dəyər il ərzində sənayedə yaradılan yeni dəyərin 10 faizindən də azdır;*
- *Emal sənayesində fəaliyyət göstərən sahələrdə əsasən aşağı və orta aşağı texnoloji məhsul qruplarına aid məhsullar istehsal olunur;*
- *Sənaye istehsalının 90 faizinə qədəri Bakı şəhəri və Abşeron iqtisadi rayonunun ərazində baş tutur.*

Təhlillər nəticəsində belə bir nəticəyə də gəlirik ki, ölkənin emal sənayesi nə hökumətin investisiya siyasətində, nə də ölkəyə gələn xarici investisiyalarda prioritet istiqamət olub. Belə ki, 2005-2019-cu illər dövründə ölkə sənayesində əsas kapitala yönəldilən 98.2 milyard manatlıq investisiyanın cəmi 11 faizi (10.5 milyard manatı) emal sənayesinin payına düşüb. Həmin dövrdə ölkə sənayesinə gələn 55.9 milyard manatlıq xarici investisiyanın 90 faizindən çoxu neft-qaz sənayesinə, 1.0 mlrd. manatdan da az bir hissəsi (1.8%) isə emal sənayesinə yönəldilib. Habelə emal sənayesinə yönəldilən daxili investisiyalarda da yüksək və orta yüksək texnoloji məhsul qrupu sahələri cüzi paya malikdir.

Tədqiqat əsasında deyə bilərik ki, ölkə sənayesinin strukturunun təkmilləşdirilməsi və emal sənayesi sahələrinin yerli və xarici investorlar üçün cəlbediciliyinin artırılması üçün ölkədə investisiya mühitinin yaxşılaşdırılması istiqamətində ciddi islahatlara ehtiyac görünür. Bu islahatlar heç də yalnız vergi güzəştlərinin və subsidiyaların genişləndirilməsinə yox, ilk növbədə, investorlar üçün daha həssas olan aşağıdakı məsələləri əhartə etməlidir

- *ölkədə investisiya fəallığının artırılması və investisiyaların stimullaşdırılması sahəsində hökumətin vahid investisiya siyasəti işlənib hazırlanmalıdır. Burada potensial investorların fəallığına mane olan bütün səbəblər və bunların aradan qaldırılması üçün konkret siyasət alət və tədbirləri sistemli və ardıcıl şəkildə əks olunmalıdır;*

- *ölkədə həyata keçiriləcək institutsional islahatlar və bunların hədəfləndiyi davranışlar, icra müddətləri göstərilməklə, detallı şəkildə ictimaiyyətə və potensial investorlara təqdim edilməlidir;*
- *investisiya mühitinin yaxşılaşdırılması üçün mülkiyyət hüquqlarının formal yox, real olaraq qorunmasını təmin edən mexanizmlər təmin edilməli, məmur sahibkarlığı aradan qaldırılması təmin edilməlidir;*
- *müstəqil və ədalətli məhkəmə isteminin qurulması institutsional islahatların bir nömrəli məsələsidir, çünki biznesin inkişafı və investisiya fəallığına olan maneələrin bir çoxunun həll edilməsi ilk növbədə məhkəmələrin ədalətliliyinin təmin edilməsinə bağlıdır;*
- *hökumətin biznesə yönəlik qərarlarının qəbul edilməsi mexanizmləri dəyişilməlidir, belə qərarların layihələri əvvəlcədən ictimai müzakirələrə təqdim edilməli, müxtəlif maraq tərəflərinin mövqeyi öyrənilməli, bu addımları doğuran əsaslar və onların biznesə təsirinin qiymətləndirilməsi nəticələri ictimaiyyətə açıqlanmalıdır;*
- *hökumətin biznesin xərclərinə və gəlirlərinə təsir göstərən qərarların gizli qəbul edilməsi praktikasından imtina edilməlidir. Bu cür dəyişikliklərlə bağlı hökumətin proqramı olmalı, orada gözlənilən dəyişikliklərin müddətləri və əsaslandırmaları təqdim edilməlidir. Biznesin öz işini düzgün planlaşdıra bilməsi üçün planlaşdırılan belə dəyişikliklər barədə ictimaiyyət və biznes ən azı 6 ay qabaqcadan məlumatlandırılmalıdır;*
- *hökumətin makroiqtisadi sabitləşdirmə, büdcə-vergi, pul-kredit və investisi-yaların stimullaşdırılması siyasətləri səmərəli şəkildə əlaqələndirilməlidir;*
- *"Rəqabət Məcəlləsi", habelə "İnvestisiya fəaliyyəti haqqında" və "Xarici investitisiyaların qorunması haqqında" yeni qanunlar qəbul edilməlidir v s.*
- *ölkənin qeyri-neft sektoruna, xüsusilə ixrac yönümlü emal sənayesi sahələrinə birbaşa xarici investisiyaların cəlb edilməsinə yönəlik kompleks tədbirlər sistemi işlənib hazırlanmalı və həyata keçirilməlidir;*
- *müəyyən məhsulların istehsalı üzrə dünyaca tanınmış bir neçə şirkətin ölkəmizdə fəaliyyətinin qurulması üçün onlarla fərdi danışıqlar aparılsın və onların fəaliyyəti üçün şərait yaradılsın.*

# Ədəbiyyat siyahısı


1. "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyası. Azərbaycan Republikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilib
2. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilib
3. Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 26 dekabr tarixli Sərəncamı ilə təsdiq edilib
4. **Aslanlı K., İsmayıl Z., Ağayev R., Mehtiyev A.** İqtisadiyyatın və ixracın diversifikasiyasının qiymətləndirilməsi. Gəlirləri İzləmə İnstitutunun (ABŞ) dəstəyi ilə. Azad İqtisadiyyata Yardım İB. Bakı, 2013
5. **Əhmədov İ.** Azərbaycan iqtisadiyyatının diversifikasiya problemləri: maneələr və həll yolları. İslahat təklifləri toplusu: siyasət yazıları.Bakı, SBİİYF və CİPE, 2017, səh. 102-133
6. **Mehtiyev A.** Azərbaycan iqtisadiyyatına birbaşa xarici investisiyalar: mövcud durum, inkişaf meylləri və problemləri. BRİ, 2018 https://bakuresearchinstitute.org/az/foreign-direct-investment-in-azerbaijans-economy-current-status-development-trends-and-challenges/
7. **Mehtiyev A.** İnvestisiyalaırn stimullaşdırılması siyasəti: onu necə gücləndirmək olar? İslahat təklifləri toplusu: siyasət yazıları.Bakı, SBİİYF və CİPE, 2017, səh. 39-87
8. **Аджемоглы Д., Джонсон С., Робинсон Дж..** Институты как фундаменьтальная причина долглсрочного экономического роста. // Экономист, 2000, №5
9. Структурная трансформация в интересах всеохватного и устойчивого роста. Доклад о торговле и развития, 2016 год. ЮНКТАД. Нью-Йорк и Женева, 2016 г.
10. Доклад о росте: стратегии устойчивого роста и инклюзивного развития. Комиссия по Росту и Развитию Всемирного Банка. Издание Всемирного Банка (2008). Перевод с английского, Москва, «Весь мир», 2009
11. **Идрисов Г.И.** Промышленная политика России в современных условиях Москва, Изд-а Института Гайдара, 2016, 160 с.
12. **Портер М.Е.** Международная конкуренция. Москва: «Дело», 1993
13. **Попов В.В.** Промышленная политика – как определить отрасли, которые надо поддерживать // Журнал НЭА, №2 (22), 2014, стр. 186-190
14. **Родрик Д.** Реформа торговой политики как институциональная реформа. http://siteresources.worldbank.org/INTRANETTRADE/Resources/Pubs/Handbook_rs_Rodrik_ch1.pdf
15. **Hausmann R., Rodrik D. and Velasco A.** "Getting the Diagnosis Right".// Finance and Development,43, (2006). http://www.imf.org/external/pubs/ft/fandd/2006/03/hausmann.htm

16. **Hausmann R., Rodrik D., Velasco A**. Growth Diagnostics. March, 2005 http://citeseerx.ist.psu.edu/viewdoc/download?doi=10.1.1.446.2212&rep=rep1&type=pdf
17. **Krugman P.R., Obstfeld M. and Melitz M.J.**. International economics: theory & policy. 11th ed. Nyu York, Pearson Education, Inc., 2017 (The Pearson series in economics)
18. **Rodrik D.** The Past, Present, and Future of Economic Growth. //Global Citizen Foundation. Working Paper 1. June 2013. http://www.gcf.ch/wp-content/uploads/2013/06/GCF_Rodrik-working-paper-1_-6.17.131.pdf
19. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin saytı: https://www.stat.gov.az/

Sənəd Demokratik Təşəbbüslər İnstitutunun (IDI) apardığı araşdırmalar əsasında tərtib olunub.

IDI araşdırmanın aparılmasına və sənədin ərsəyə gəlməsinə töhfə verən hər kəsə dərin təşəkkürünü bildirir.

Məlumatlardan istifadə edərkən IDI-yə istinad etmək zəruridir.

Əlaqə məlumatları: Tel:

+99450 435 95 42

Web: www.idi-aze.org

E- poçt: idi.azerbaijan@gmail.com

Facebook: www.facebook.com/DTI.IDI